Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Vergi və hesabatlılıq" İşçi qrupunun iclasının

PROTOKOLU

Bakı şəhəri 29 oktyabr 2026-cı il

İştirakçılar:

1.İlkin Vəliyev – Dövlət Vergi Xidmətinin rəis müavini, İşçi qrupunun rəhbəri;

2.Vüsal Şıxəliyev – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Komissiyanın Katibliyinin rəhbəri;

3.Nicat İmanov – Dövlət Vergi Xidmətinin Vergi siyasəti baş idarəsinin rəisi, İşçi qrupunun rəhbərinin müavini;

4.Elçin Məmmədov – Dövlət Vergi Xidmətinin Vergi ödəyicilərinə xidmət baş idarəsinin rəisi;

5.Elçin Namazlı – Dövlət Vergi Xidmətinin Bəyannamələr və kameral vergi yoxlamalarına nəzarət baş idarəsinin rəisi;

6.Roman Bandurin – Dövlət Vergi Xidmətinin Data analitika idarəsinin rəisi;

7.Şahin Məmmədov – Dövlət Vergi Xidmətinin Media və kommunikasiya idarəsinin rəis müavini;

8.Arif Quliyev – Dövlət Vergi Xidmətinin Vergi ombudsmanı xidməti baş idarəsinin rəisi;

9.Emil Rəhimov – Dövlət Vergi Xidmətinin İnzibati şikayətlərə baxılması baş idarəsinin rəisi;

10.Nicat Həsənov – Dövlət Vergi Xidmətinin Rəqəmsal vergi inzibatçılığı baş idarəsinin rəisi;

11.Rəşad Nuriyev – Dövlət Vergi Xidmətinin Vergi siyasəti baş idarəsinin Vergi siyasəti idarəsinin rəisi;

12.Turan Əlizadə – Dövlət Vergi Xidmətinin Beynəlxalq vergitutma və vergi monitorinqi baş idarəsinin Rəqəmsal iqtisadiyyat üzrə vergitutma şöbəsinin baş dövlət vergi müfəttişi, İşçi qrupunun katibi;

13.Nərmin Rzazadə – Dövlət Vergi Xidmətinin Media və kommunikasiya idarəsinin Media şöbəsinin müfəttişi;

14.Gülzar Tahirova – Mərkəzi Bankın Tədqiqatlar departamentinin direktor müavini;

15.Rasim Mirzəyev – Dövlət Statistika Komitəsinin Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin İqtisadi balanslar sektorunun müdiri;

16.Cavid Həzizadə – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Maliyyə və təminat şöbəsinin Gəlirlər sektorunun müdiri;

17.Azər Qənbərov – Professional Maliyyə Menecerləri Assosiasiyasının (APFM) "Qanunvericilik" komitəsinin sədri;

18.Cavid Həsənov – "Ernst & Young Holdings (CIS) B.V." şirkətinin Azərbaycan Respublikasındakı filialının Vergi və hüquq departamentinin baş meneceri;

19.Nəzrin Xalıqzadə – "Deloitte & Touche" şirkətinin vergi meneceri;

20.Rüfət Şahbazov – "PWC" şirkətinin vergi meneceri;

21.Telman Əliyev – "Caspian Energy Club"ın sədri və qrupun baş icraçı direktoru;

22.Sirac Piriyev – Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, vəkil;

23.Mehdi Babayev – Bakı hesabat mərkəzinin rəhbəri;

24.Vüqar Mirheydərov – Vergi eksperti;

25.Sərdar Xudiyev – Azərbaycan Əczaçı Sahibkarlar Assosiasiyasının üzvü;

26.Valid Hüseynov – "Financial Chain Corporation" şirkətinin direktor müavini;

27.Elşad Hacaliyev – Azərbaycan Respublikasının Auditorlar Palatası, sərbəst auditor;

28.Könül Bədəlova – İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji planlaşdırma şöbəsinin aparıcı məsləhətçisi;

29.Yadulla Rəhimov – Altqrupun Koordinasiya qrupunun rəhbəri, "City Group" MMC-nin direktoru;

30.Elxan Mərdanlı – "Mozaik Qrup" MMC-nin marketinq və biznesin inkişafı üzrə direktoru;

31.Mikayil Yusifov – "İnci Group of Companies" şirkətinin İdarə Heyətinin sədri;

32.Afət Əhmədova – "Brightman BMC" şirkətinin təsisçisi və direktoru;

33.Miramal Ağayev – Azərbaycan Respublikasının Auditorlar Palatası, sərbəst auditor;

34.Cavid Nəcəfov – Beynəlxalq Maliyyə və Mühasibat Mərkəzinin icraçı direktoru;

35.Lamiyə Məmmədova – Beynəlxalq Audit Mərkəzinin auditoru;

36.Mirəlisahib Kazimov – Sahibkar, mühasib;

37.Saqi Vəliyev – "Veysəloğlu Qrup" MMC-nin Vergi departamentinin rəhbəri;

38.Vüqar Eyvazov – ÖTMA-nın İdarə Heyətinin üzvü, "Sağlam Ailə"nin rəhbəri;

39.Rəşid Çulaqov – Qablaşdırma Sənayesi Assosiasiyasının təsisçisi;

40.Kamran Həbibov – Azərbaycan Nəqliyyat Ekspeditor Şirkətləri Assosiasiyasının sədri.

Müzakirə olunmuş məsələlər:

- Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Vergitutma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2026-cı il üçün Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin müzakirəsi;

- Vergi siyasəti və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində irəli sürülmüş təkliflərin müzakirəsi;

- Özəl sektor nümayəndələrinin vergi inzibatçılığı ilə bağlı müraciət və təkliflərinin müzakirəsi.

İclasın gedişatı:

Cari ilin 29 oktyabr tarixində Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Vergi və hesabatlılıq" İşçi qrupunun növbəti iclası keçirilmişdir.

İşçi qrupunun rəhbəri, Dövlət Vergi Xidmətinin rəis müavini İlkin Vəliyev görüş iştirakçılarını salamlamış, iclasın gündəliyini və məqsədini nümayəndələrin diqqətinə çatdırmışdır.

Daha sonra Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev çıxış edərək Azərbaycanın Dünya Bankı Qrupunun "Business Ready" (B-READY) hesabatının "Vergitutma" indikatoru üzrə qiymətləndirmədə iştirak etdiyini qeyd etmişdir. O, hesabatda iştirak edən ölkələrin sayının 101-dən 160-dan çoxa çatdığını qeyd edərək, bu artımın ölkələr arasında rəqabət mühitini daha da gücləndirdiyini vurğulamışdır.

Bundan sonra iclasın gündəliyinə uyğun olaraq İşçi qrupunun rəhbəri, Dövlət Vergi Xidmətinin rəis müavini İlkin Vəliyev tərəfindən Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Vergitutma" indikatoru üzrə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər və 2026-cı il üçün Yol Xəritəsində nəzərdə tutulan fəaliyyət istiqamətləri barədə geniş məlumat verilmişdir. Bildirilmişdir ki, Yol Xəritəsi çərçivəsində vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, rəqəmsal həllərin genişləndirilməsi və beynəlxalq qabaqcıl təcrübələrin tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Qeyd olunmuşdur ki, Yol Xəritəsində vergi ödəyicilərinin artıq ödəmələrinin geri qaytarılması mexanizmlərinin sadələşdirilməsi və daha operativ şəkildə həyata keçirilməsi, vergi bəyannamələrinin əvvəlcədən doldurulması (pre-filling) sisteminin tətbiqinin genişləndirilməsi, ekoloji vergilərin tətbiqi dairəsinin müəyyənləşdirilməsi məqsədilə beynəlxalq təcrübəyə uyğun

siyasət və təkliflərin hazırlanması, risk əsaslı səyyar vergi yoxlamalarının tətbiqinin təkmilləşdirilməsi və əhatə dairəsinin genişləndirilməsi kimi mühüm istiqamətlər öz əksini tapmışdır.

Eyni zamanda vurğulanmışdır ki, həyata keçirilən tədbirlər vergi sahəsində şəffaflığın artırılmasına, inzibati yükün azaldılmasına, sahibkarlar üçün daha əlverişli və proqnozlaşdırıla bilən biznes mühitinin formalaşdırılmasına, eləcə də beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət edir.

Daha sonra Dövlət Vergi Xidmətinin Bəyannamələr və kameral vergi yoxlamalarına nəzarət baş idarəsinin rəisi Elçin Namazlı tərəfindən sadələşdirilmiş vergi hesabatları sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat təqdim olunmuşdur.

Ardınca Dövlət Vergi Xidmətinin Vergi siyasəti baş idarəsinin rəisi, İşçi qrupunun rəhbərinin müavini Nicat İmanov tərəfindən vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində hazırlanmış təkliflər, vergi qanunvericiliyinə edilməsi nəzərdə tutulan dəyişikliklərin mahiyyəti, məqsədləri və əsas istiqamətləri barədə ətraflı təqdimat edilmişdir. O, həmçinin təklif olunan dəyişikliklərin vergi inzibatçılığına, sahibkarlıq subyektlərinin fəaliyyətinə və vergi ödəyiciləri ilə dövlət arasında münasibətlərə mümkün təsirləri barədə məlumat vermişdir.

Eyni zamanda iclas çərçivəsində İşçi qrupunun üzvləri tərəfindən vergi inzibatçılığı, rəqəmsal xidmətlərin inkişafı, hesabatlılıq mexanizmlərinin təkmilləşdirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və biznes subyektləri ilə kommunikasiyanın daha da gücləndirilməsi istiqamətlərində bir sıra təklif və müraciətlər səsləndirilmişdir. Həyata keçirilən islahatların praktiki nəticələri, mövcud çağırışlar və gələcək dövrdə prioritet hesab olunan məsələlər ətrafında iştirakçılar arasında geniş fikir mübadiləsi aparılmışdır.

Müzakirələr zamanı özəl sektor nümayəndələri, konsaltinq şirkətləri və biznes assosiasiyaları tərəfindən müxtəlif təşəbbüslər irəli sürülmüş, sahibkarların qarşılaşdığı praktiki məsələlər və onların həlli istiqamətində mümkün yanaşmalar diqqətə çatdırılmışdır. Bununla yanaşı, rəqəmsal həllərin tətbiqinin genişləndirilməsi, elektron xidmətlərin istifadəçi yönümlülüyünün artırılması, vergi prosedurlarının daha da sadələşdirilməsi və şəffaflığın gücləndirilməsi ilə bağlı fikir və təkliflər səsləndirilmişdir.

Həmçinin görüş zamanı sahibkarlar tərəfindən qarşılaşılan çətinliklər diqqətə çatdırılmışdır. Sahibkarlar qeyd olunan məsələlərin gündəlik fəaliyyətlərinə təsirini vurğulayaraq, vergi nəzarəti tədbirlərinin daha çevik, seçici və risk əsaslı yanaşma ilə həyata keçirilməsi, yaranan problemlərə aidiyyəti üzrə baxılması və onların operativ həlli ilə bağlı təklif və müraciətlərini bildirmişlər.

Qaldırılan məsələlərin araşdırılacağı, görülən tədbirlər barədə sahibkarların məlumatlandırılacağı və müraciətlərin aidiyyəti üzrə cavablandırılacağı bildirilmişdir.

Sonra Bakı hesabat mərkəzinin rəhbəri Mehdi Babayev özəl sektora dəstək göstərilməsində vergi orqanının rolunun əhəmiyyətini vurğulamışdır.

Daha sonra "Caspian Energy Club"ın sədri Telman Əliyev çıxış edərək Dövlət Vergi Xidmətinin sahibkarlarla əməkdaşlıq istiqamətində həyata keçirdiyi tədbirləri və fəaliyyətini yüksək qiymətləndirmiş, sahibkarların müraciətlərinə göstərilən diqqətə və qaldırılan məsələlərin həllinə yönəlmiş yanaşmaya görə təşəkkürünü bildirmişdir. O, həmçinin vergi orqanlarına daxil olan şikayət və müraciətlərə baxılması proseslərinin sadələşdirilməsi və elektron platformaların tətbiqinin genişləndirilməsinin əhəmiyyətini vurğulamışdır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev eyni zamanda "Vergi və hesabatlılıq" İşçi qrupu tərəfindən həyata keçirilən fəaliyyətin, aidiyyəti dövlət qurumları ilə özəl sektor arasında qurulan əməkdaşlıq mexanizmlərinin və mütəmadi dialoq platformalarının xüsusi əhəmiyyət daşıdığını bildirmişdir. O, qarşıdakı dövrdə də bu istiqamətdə fəaliyyətin davam etdirilməsinin, özəl sektor nümayəndələrinin, konsaltinq şirkətlərinin və biznes assosiasiyalarının proseslərə daha fəal şəkildə cəlb olunmasının vacibliyini vurğulamışdır.

Növbəti çıxışda Vergi sahəsində sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması üzrə Altqrupun Koordinasiya qrupunun rəhbəri Yadulla Rəhimov vergi orqanına təqdim olunmuş təkliflər və aparılmış müzakirələr nəticəsində problemlərin həlli istiqamətində əldə olunmuş irəliləyişləri və Dövlət Vergi Xidmətinin dəstəkləyici rolunu xüsusi qeyd etmişdir.

Bununla yanaşı, İşçi qrupunun fəaliyyəti çərçivəsində gələcək dövrdə də müxtəlif istiqamətlər üzrə müzakirələrin və tematik görüşlərin davam etdirilməsi, üzvlər və ekspertlər tərəfindən irəli sürülən təkliflərin araşdırılması nəzərdə tutulmuşdur.

Sonda Dövlət Vergi Xidmətinin rəis müavini, İşçi qrupunun rəhbəri İlkin Vəliyev Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəhbərlik etdiyi "Vergi və hesabatlılıq" İşçi qrupu tərəfindən 2026-cı il üçün görüləcək işlərin nəzərdə tutulan qrafik üzrə tamamlanacağı barədə məlumat verməklə yanaşı, İşçi qrupunun üzvlərinə Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrasına proaktiv yanaşmağa, İşçi qrupu çərçivəsində fəal və yaradıcı əməkdaşlıq etməyə çağırmışdır.

Yekunda qərara alınmışdır:

1. Görüş zamanı sahibkarlar tərəfindən səsləndirilən müraciət və təkliflərin aidiyyəti struktur bölmələr tərəfindən araşdırılması, qaldırılan məsələlərin həlli istiqamətində görülmüş tədbirlər və əldə olunmuş nəticələr barədə növbəti görüşdə həmin sahibkarların iştirakı ilə ətraflı məlumatın təqdim edilməsi. (icraçılar: Vergi siyasəti baş idarəsi, Bəyannamələr və kameral vergi yoxlamalarına nəzarət baş idarəsi, Rəqəmsal vergi inzibatçılığı baş idarəsi);

2. "Vergitutma" indikatoru üzrə məlumatlılığın artırılması istiqamətində özəl sektorun nümayəndələri, o cümlədən konsaltinq şirkətləri və biznes assosiasiyaları arasında müvafiq məlumatlandırma və maarifləndirmə tədbirlərinin davam etdirilməsi (icraçı: Media və kommunikasiya idarəsi, icra müddəti: mütəmadi);

3. Özəl sektorun nümayəndələri, o cümlədən konsaltinq şirkətləri və biznes assosiasiyaları tərəfindən daxil olan müraciət və təkliflər əsasında müvafiq mövzular üzrə məlumatlandırma və maarifləndirmə xarakterli tematik görüşlərin təşkili. (icraçı: İşçi qrupunun katibliyi, icra müddəti: mütəmadi).

Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın
"Vergi və hesabatlılıq" İşçi qrupunun rəhbəri,
Dövlət Vergi Xidmətinin rəis müavini,
3-cü dərəcəli dövlət vergi xidməti müşaviri **İlkin Vəliyev**

Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın
"Vergi və hesabatlılıq" İşçi qrupunun katibi **Turan Əlizadə**